# ANTROPOGEN AMİLLƏRİN DAĞ-ÇƏMƏN TORPAQLARINA TƏSİRİ VƏ BƏRPASI YOLLARI

**Həsənova R.A.**

*Bakı Dövlət Universiteti*
*h.ruxsare@gmail.com*

Müasir dövrdə aqrar islahatların tərkib hissəsi kimi torpaq siyasətinin həyata keçirilməsi, əsas istehsal vasitəsi olan torpağa daha diqqətlə yanaşmaq mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Şamaxı rayonunun dağ-çəmən torpaq örtüyünə antropogen təsirlər, o cümlədən təbii və antropogen amillərin birgə təsiri nəticəsində torpaqlarda baş verən deqradasiya proseslərinin öyrənilməsi məqsədi ilə torpaq-ekoloji tədqiqat işləri aparılmışdır.

Mürəkkəb geomorfoloji quruluşa, mülayim isti iqlimə malik Şamaxı rayonu ərazisində yayılmış dağ-çəmən torpaqlarının yuyulmuş, zəif çimli, dağ-çəmən bozqır torpaqlar; karbonatlı, zəif çimli, dağ-çəmən bozqır torpaqlar kimi növmüxtəliflikləri müəyyən edilmişdir. İstər otlaqaltı, istərsə də dağ əkinaltı sahələr kimi itifadə olunan dağ-çəmən torpaqları humusla zəngin olub, üst qatda onun miqdarı təxminən 13-16%, dərinliyə doğru humusun kəskin azalması (1,7-2,4%) ilə xarakterizə olunur. Humusun miqdarına uyğun olaraq ümumi azotun da miqdarı üst qatda 0,76% təşkil edir ki, bu da torpaqdakı üzvi qalıqların daha dərindən parçalandığını göstərir. Çimli dağ-çəmən torpaqlarında udma tutumu da üst qatda təxminən 44-58% olmaqla, udulmuş əsasların cəmində $Ca^{2+}$ və $Mg^{2+}$ üstünlük təşkil edir. Torpaq məhlulunun reaksiyası zəif turş və turş (5,6-4,9) olması aşkar edilmişdir, bu isə çimli qatda kül elementlərinin çoxluğu ilə izah edilir.

Ərazi üzrə həm əkilib-becərilən torpaq sahələrindən, həm də otlaqlardan düzgün istifadə olunmaması, mal-qaranın nizamsız otarılması, ümumilikdə, təbii və antropogen amillərin birgə təsirinə görə bölgədə eroziyanın bütün növləri (səthi, xətti, irriqasiya, otlaq və külək eroziyası) inkişaf etmiş, müəyyən ərazilərdə eroziyaya qarşı ən əhəmiyyətli vasitə hesab olunan bitki örtüyünün seyrəlməsi baş vermişdir. Nəticədə torpaq hissəciklərinin bitki kökləri vasitəsilə bir-birinə möhkəm bağlanmağı zəifləmiş, onların asanlıqla yuyulma və deflyasiyaya məruz qalması şəraiti formalaşmışdır. Qeyd etmək lazımdır ki, əgər təbii amillər deqradasiyanı törədirsə, antropogen amillər, insanın düzgün olmayan təsərrüfat fəaliyyəti bu prosesi daha gücləndirir. Odur ki, təsərrüfatlarda ərazinin təşkilində relyef və torpaq-bitki şəraiti sistemi, şumun və bütün becərmə işlərinin küləklərin istiqamətinin əksinə və yamacın eninə aparılması ilə, torpağın daimi nəmli saxlanılması, otlaq kənd ətrafı örüş və biçənəklərdə səthi yaxşılaşdırmanın aparılması, çoxillik ot bitkiləri əkilən sahələrdə aqrotexniki tədbirlərin vaxtında aparılması tədbirləri ilə torpaqların deqradasiyasının qarşısının alına

bilər. Habelə, otlaqlarda ot örtüyünün bərpa edilməsi üçün səmərəli üsullardan biri olan mal-qaranın hissə-hissə otarılması ilə otlaq dövriyyəsinin yaradılmasına əməl etmək lazımdır. Torpaq və bitki örtüyünün deqradasiyaya uğrama dərəcəsindən asılı olaraq otlaqların 1-5 il, şiddətli dağılmış sahələrin isə 10 il müddətində istirahətə qoyulması, topağın çim qatının bərpası üçün üzvi və mineral gübrələrin verilməsi, yüksək məhsuldar yem otları toxumlarının səpilməsi və səpindən əvvəl malalama işlərinn həyata keçirilməsi məqsədəuyğun hesab edilir.